# TƏLİM KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏNİN YOLLARI



**Vəfa Çıraqova,**
*Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru*
*e-mail: chiragovav@gmail.com*
*https://doi.org/10.30546/2706-7858.2026.1.205*

**UOT:** 37

**Xülasə**. *Məqalədə təhsil və təlimin keyfiyyətinin yüksədilməsində müasir texnologiyalardan istifadənin yollarından, "təlim keyfiyyəti" anlayışının fəlsəfi və sosial aspektlərdə əsas xüsusiyyətlərindən bəhs olunur. Ümumilikdə, təhsil sahəsində təlimin keyfiyyətinin müxtəlif sahələri təhlil edilir. Təlimin keyfiyyət sisteminin strukturlaşdırılmasına funksional və fəal yanaşma vacib xarakter daşıyır. Təlim keyfiyyətinin yüksəldilməsi üçün ümumi, konkret və ciddi şərtlər var ki, bu şərtləri hər bir pedaqoq nəzərə almalıdır. Bununla yanaşı, təhsilin keyfiyyəti hər bir təhsilalanın qabiliyyətlərinin, hərəkət səriştələrinin, qavrama, anlama mexanizmləri və davranışlarının formalaşması əxlaq və mənəviyyatının təzahürü kontekstində müəyyən olunaraq təmin edilməlidir.*

***Açar sözlər:*** *qeyri-standart dərs, təlim, təlimdə keyfiyyət, standartlar, yeni tələblər, təlimin effektliyi, öyrənmə prosesi.*
***Keywords:*** *non-standard lesson, training, guality in standartds new requirements, effectiveness of training, learning process.*
***Ключевые слова:*** *нестандартный урок, обучение, качество обучение, новые требования, эффективность обучения, учебный процесс.*

Hazırda respublikamızın təhsil sistemində aparılan ciddi islahatlar digər sahələrdə olduğu kimi, təhsil sahəsində də təlimin keyfiyyət məsələlərini qarşıya ciddi məsələ kimi qoyur. Bu ən çox təlimin keyfiyyəti və təhsilin idarəolunmasında özünü büruzə verir. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda məktəblərdə təlimə yeni yanaşmalar, təlimin yeni standartlar üzrə aparılması mühüm strateji istiqamət kimi müəyyən edilmişdir. Bu istiqamət təhsil sistemində tənzimləmə və təlimin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi, eləcə də nəticəyönümlü, bilik, bacarıq və vərdişlərə əsaslanan, təhsilin keyfiyyətinin təminatı üzrə qarşıya yeni hədəflər və mühüm vəzifələr qoyur.

Yeniləşən müasir cəmiyyətdə, informasiya bolluğu olan bir dövrdə müəllim özü də müasirləşməli, artan tələblərə uyğunlaşmağı bacarmalıdır. Müasir təlim texnologiyalarından səmərəli istifadə üçün təhsilin humanistləşdirilməsi və humanitarlaşdırıl-

ması, yeni təlim paradiqmalarının və taksonomiyalarının yaradılması, şəxsiyyətyönümlü və nəticəyönümlü təhsilin inkişaf etdirilməsi, dünya təhsil standartlarına keçid, təhsildə qloballaşma siyasəti, yeni milli təhsil konsepsiyasının kurikulumunun yaranması və s. kimi yeniliklər və bunları reallaşdırmağa qabil yeni pedaqoji təfəkkürə malik peşəkar, səriştəli müəllimlər tələb olunur. Təhsilə müasir yanaşmalarda əsas məsələlərdən biri "nəyi necə öyrətmək" problemidir. Bu baxımdan məqalədə öyrənənlərə elmi biliklərin əsaslarını vermək, onları müəyyən həyati bacarıqlarla silahlandırmaq lazımdırmı?, Təhsilalanlar mürəkkəb həyat məsələlərindən, onları maraqlandıran müəyyən problemlərdən baş aça bilirlərmi?, Sürətlə inkişaf edən müasir elmdən nələri seçib təhsil sisteminə gətirmək lazımdır?, Təhsilin məzmunu bütün məsələləri həll edə bilirmi?, Təhsil anlayışı, təhsilin modernləşdirilməsi nədir? və s. bu kimi sualların cavabına diqqət yetirilir, təhsilin müasir dövrün tələblərinə uyğun inkişafı ilə elmi-pedaqoji müddəalar irəli sürülür.

Təhsilə anlayış kimi yanaşsaq, mövcud olan bu sistemin hər bir pilləsi, müvafiq zaman çərçivəsində nəzərdə tutulan həcmdə qazanılan bilik, bacarıq və vərdişdir. Bu, bilik, bacarıq və vərdişlər sayəsində intellektin əqli və fiziki cəhətdən inkişaf etdirilməsidir. Təhsil, həm də sistem, proses, nəticə, dəyər və sosial institutdur. İnsanın təhsil müəssisəsi şəraitində və yaxud özünütəhsil yolu ilə bilik, bacarıqlara, zehni və praktik fəaliyyət təcrübəsinə yiyələnməsi proses kimi ifadə olunur. Təhsil prosesi təhsilin məqsədindən onun nəticəsinədək olan hərəkətdir. Bu proses təhsilalan və təhsil verənlərin qarşılıqlı fəaliyyətinə əsaslanır və məqsədyönlü xarakter daşıyır. Təhsil proses kimi, həm də təhsil sistemində reallaşır və bu sistemdə dövlət təhsil standartları, bir-birini əvəzləyən, yenilənən təhsil proqramları, eyni zamanda təhsil müəssisələri vəhdət təşkil edir.

Təhsil dəyər kimi insanın sistemli biliklərə, zehni qabiliyyətə, mənəvi keyfiyyətlərə, qiymətləndirmə bacarığına yiyələnməklə bir şəxsiyyət və vətəndaş kimi həyata, əməyə, cəmiyyətə hazırlanmaqla ifadə olunur. Təhsil xalqımız tərəfindən yüksək dəyər kimi qiymətləndirilmişdir. İstər milli, istərsə bəşəri dəyər – insan hansı dəyərlərə əsaslanmasından asılı olaraq müxtəlif istiqamət kəsb edə bilir. Təhsil insanı həm praktik xarakterli bilik və bacarıqları aşılamağa, həm də mədəni-humanist dəyərləri formalaşdırmağa yönəldir. Gənclər təhsil sayəsində nəinki bilikləri, eyni zamanda ətraf aləmi, yaşadıqları ərazinin bütövlüyünü, Vətən, torpaq sevgisini, mənsub olduqları yerin ədəbiyyatının, tarixinin, milli-mənəvi mentalitetinin nə qədər dəyərli olduğunu mənimsəyirlər. Təhsilin nəticəsi sonda əldə olunmuş təhsillilik səviyyəsində özünü göstərir.

Təhsil təkcə iqtisadi baxımdan deyil, həm də cəmiyyətin sosial inkişafı, gənc nəslin həyata hazırlanması baxımından böyük əhəmiyyət kəsb edir. Yaxşı qazanılmış təhsil yeni texnologiyaları çevik mənimsəməyə, əmək bazarında layiqli yer tutmağa və ömürboyu təhsil prosesinə qoşulmağa, sağlam həyat tərzi və ətraf mühitə münasibətdə düzgün mövqe seçməyə, ekoloji və hüquq mədəniyyətinə yiyələnməyə imkan verir. Təhsil cəmiyyətlə qarşılıqlı vəhdətdə olduğu üçün cəmiyyətin sosial-iqtisadi tərəqqisində aparıcı rol oynayır. Artıq cəmiyyət bizdən yeni standart və tələblərə uyğun keyfiyyətli təhsil tələb edir. Bura bir sıra amillər təsir göstərir:

*– təlimin keyfiyyətinin yüksəldilməsi üçün yüksək biliyə sahib, peşəsini sevən, səriştəli kadrlar yetişdirmək;*

*– təhsildə idarəetmə sistemini düzgün təşkil etmək;*

*– peşəkar kadrların təlim strategiyalarına diqqət yetirmək;*

*– təhsilin keyfiyyətinin artırılmasında təlim texnologiyalarından istifadənin mümkünlüyünü artırmaq;*

*– təhsilalanlarda təlim motivasiyasını yüksəltmək.*

İnsan dünyaya ali məqsəd üçün gəlir, yaxşı təhsil-tərbiyə alıb yaşadığı cəmiyyətin inkişaf səviyyəsinə yüksəlmək arzusu ilə yaşayır. Bu prosesdə təhsil böyük imkanlara malikdir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda göstərildiyi kimi, respublikanın sosial-iqtisadi həyatının daha da modernləşdirilməsi, iqtisadi inkişafın təmin edilməsi yeni yaranan texnologiyalardan, idarəetmədən, elmi nailiyyətlərdən bilavasitə asılıdır. Təhsilin rolu tək bilik verməklə məhdudlaşmır, bir çox amilləri özündə birləşdirir:

*– ilk növbədə, təhsilalanların bilik, bacarıq və vərdişlərə yiyələnməsini təmin edir;*

*– qazanılan bilik və bacarıqların iqtisadi amilə*

*çevrilməsi üçün zəmin yaradır;*

*– yüksək səviyyəli peşəkar kadrların hazırlanmasına şərait yaradır;*

*– əldə olunan bilik, bacarıq sayəsində təhsilalanları cəmiyyətdə əxlaqi dəyərlərlə silahlandırıb nümunəvi insan kimi hazırlayır.*

Təhsil sistemində baş verən bu böyük inkişaf müəllimlərin öyrətmə funksiyasını da dəyişmişdir. Belə ki, yeni dövrün tələbləri müəllimlərin öyrətmə istiqamətini dəyişib, fasilitasiya bacarığını ön plana çəkmişdir.

Hər bir dövr özünəməxsus öyrətmə üsuluna görə seçilmişdir. Tarixə nəzər salsaq, böyük pedaqoqların öyrətmə haqqında dəyərli, bir-birindən fərqli fikirlərini görərik. Y.A.Komenski (1632) təlimdə iki cəhəti – ensklopedik və real təhsili insan qabiliyyətlərinin inkişafı ilə ahəngdar surətdə bağlamağa çalışmışdır və bununla da o, öyrənmə və öyrətmənin əsasını qoymuşdur. İ.H.Pestolossi (Pedaqoji irs) təlim məsələlərindən bəhs edərək yazırdı: "Bilik almaq prosesi əvvəlcə dolaşıq müşahidələr dəryasından müəyyən müşahidələrə, sonra müəyyən müşahidələrdən aydın anlayışlara çevrilir bunlardan isə dəqiq anlayışlar yaranır". Pestolossi elə təlim üsulları tapmışdır ki, hər bir kəndli ana da öz uşaqlarını onlardan istifadə etməklə tərbiyələndirə bilərdi. Bunlardan fərqli olaraq Herbartın (Pedaqogikadan birinci mühazirə) didaktik sisteminin hədəfi belədir: "Düzgün pedaqoji rəhbərlik, intizam və onunla bağlı olan təlim əxlaqca güclü xarakterlərin formalaşmasına xidmət edir". Rus pedaqogikasının banisi sayılan K.D.Uşinski pedaqogika elminə böyük töhfələr vermiş, orijinal konsepsiya işləmişdir. Özünün "İnsan tərbiyənin predmetidir" əsərində elmi didaktikanın böyük sistemini vermişdir. Uşinskiyə görə, idrak prosesində taktiki materiallara yüklənməyin əhəmiyyəti çox böyükdür. Onun fikrincə, əgər uşaq hər hansı bir əşyanı, predmeti müşahidə edərək başqa əşya və predmetlə tutuşdurmağı, onların oxşar və fərqli cəhətlərini şərh etməyi bacarırsa, deməli, həmin şagird o əşya və predmet haqqında düşünülmüş mülahizəsini deyə biləcəkdir. Uşinski göstərirdi ki, müqayisə hər cür anlamanın və hər cür təfəkkür əməliyyatının əsasını təşkil edir. Öyrənmədə C.Dyuinin (Demokratiya və təhsil) də təlim sistemi müəyyən yer tutur. O qeyd edirdi ki, öyrənənlərin maraqlarını, həyati tələbatlarını nəzərə almaqla qurulan təlim yadda saxlamağa əsaslanan verbal (söz, kitab) təlimə nisbətən daha səmərəli nəticələr verir. Hər bir insan çətinlikləri aradan qaldırmağa səy göstərib düşünməyə, fikirləşməyə başlayır. C.Dyui problemli təlimə üstünlük verirdi. Onun fikrincə, müəllim öyrənənlərin maraqlarının inkişafına diqqətlə tam nəzarət etməli, onların imkanlarına uyğun problemlər qoymalıdır. Problemli təlimlə öyrənənlər problemi həll etməklə yeni və faydalı biliklər "kəşf" edirlər. Göründüyü kimi, İ.Herbartın ənənəvi sistemi ilə müqayisədə C.Dyui daha cəsarətli yeniliklər təklif edir. Təlim prosesində yeni istiqamətlər içərisində Amerika psixoloqu və pedaqoqu K.Brunerin hazırladığı "kəşflər etmək yolu" ilə öyrənmək və öyrənmək konsepsiyası daha cəlbedicidir. Bu konsepsiyaya görə öyrənənlər öz kəşfləri ilə dünyanı dərk etməli, yeniliklər yaratmalıdırlar. Kəşflər öyrənənlərdən əqli qüvvələrin gərginliyini tələb edir və bu da məhsuldar təfəkkürün inkişafına olduqca müsbət təsir göstərir.

*– Bəs öyrənmə nədən başlayır, necə inkişaf edir?, Öyrənənin müvəffəqiyyətini, eyni zamanda təlimdə geri qalmasına hansı amillər təsir göstərir?, Təlim fəaliyyətini daha da aktiv və maraqlı etmək üçün hansı dərs tiplərindən istifadə yaxşı nəticə göstərə bilər?* Hər şeydən əvvəl, biliksizliyini müəyyənləşdirmək çox vacibdir. Vacib olsa da, onu müəyyənləşdirmək hələ heç nəyi dəyişmir. Öyrənmək üçün qarşıya şüurlu məqsədin qoyulması zərurətdir. Məqsədə çatmaq üçün hər bir öyrənən güclü iradi səy göstərməli, daxili və xarici əngəlləri dəf etməli, eyni zamanda verilən real situasiyanı da mənimsəməlidir. Öyrənmədə biliklə yanaşı, fəalliyyət də mühüm əhəmiyyət kəsb edir. Fəaliyyət taksonomiyaların köməyi ilə sistemləşdirilir. Müxtəlif taksonomiyalardan üçü – idraki, emosional, psixomotor taksonomiyalar öyrənmənin əhəmiyyətini üzə çıxartmışdır. Benjamen Blumun adı ilə bağlı olan idraki taksonomiyaların məqsədi bilik və bacarıqla yanaşı, öyrənənin inkişafını da izləməkdən ibarətdir. İdraki taksonomiyanın səciyyəvi xüsusiyyətləri və mərhələləri aşağıdakılardır:

***bilik*** *– yaddasaxlama, xatırlama, yadasalma, tanıma;*

***anlama*** *– izahetmə, öz sözləri ilə təsviretmə, problemi bir ifadə vasitəsindən digər ifadə vasitəsinə çevirmə;*

**tətbiqetmə** – *problemi həlletmə, müəyyən nəticələr əldə etmək üçün informasiyaları tətbiqetmə;*

**təhliletmə** – *motivləri müəyyənləşdirmə, hissələrə bölmə, strukturu tapma;*

**sintez** – *həm şifahi formada, həm də fiziki obyekt ola bilən yeganə ilkin variantı əlaqələndirmə;*

**dəyərləndirmə** – *məsələ haqqında mühüm qərarlar çıxartma, mübahisələri həlletmə.*

Taksonomiyalar məqsədlərin səviyyələrini təmin edir, məqsədlərə genişlik və dəqiqlik verir, yeni təlim modelini yaradır, öyrənməni gücləndirir.

*Təlimə müxtəlif yanaşmalar lazımdırmı?*

Müasir təlim nəzəriyyəsi və praktikası mürəkkəb bir şəraitdə inkişaf edir. İnformasiyalı cəmiyyətdə elmi məlumatların nəhəng həcmi və bu məlumatdan öyrənən üçün nələri seçmək məsələsi üzərində düşünməyə dəyər. İnteqrasiya və informasiya bolluğu şəraitində ağlın, intellektin ön plana keçməsi “insan və texnika” münasibətlərinin formalaşması sayəsində baş verir. Belə bir şəraitdə təhsilin vəzifələri dəyişir. Dünyanın təhsil məkanında sadəcə bilik və bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi istiqamətləndirilir, eyni zamanda təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Bu inkişaf üçün təlimə müasir, müxtəlif yanaşmalar formalaşmağa başlamışdır. Bu yanaşmaları belə qruplaşdırmaq olar: *problemli təlim və ya dərsdə problemli vəziyyətin yaradılması; proqramlaşdırılmış təlim; alqoritmləşdirilmiş təlim; kompüter təlimi; diferensial təlim; distant (məsafədən) təlim.*

• **Problemli təlim** – təlim prosesində problemli vəziyyət yaradıb öyrənənlərin təfəkkürünü, yaradıcı, müstəqil düşüncə tərzini inkişaf etdirməklə idrak fəaliyyətinin yüksəldilməsidir. Eyni zamanda problemli təlim öyrənənləri tədqiqatçılığa, axtarışlara və yaradıcılığa təhrik edir. Öyrənmə məqsədyönlü xarakter daşıdığından müasir dövrdə elə qurulmalıdır ki, öyrənənin hafizəsinə yox, təfəkkürə istinad edilsin. Təfəkkür öyrənənin qarşısına müəyyən bir problem qoyulduqda fəaliyyətə başlayır. Əvvəlcə əlverişli, yeni situasiya yaradılır, öyrənən problemi həll etmək üçün müstəqil axtarışlar aparır, mühakimələr yürüdür və məsələnin həlli yollarını tapır. Problemli vəziyyət nəyinsə düzgün cərəyan etmədiyini, nəyinsə meydana çıxacağını, nə isə etmək lazım gəldiyinə bir növ işarə vurur, öyrənəni daha şüurlu, daha sərbəst fəaliyyətə sövq edir. Təfəkkür, məhz bu fəaliyyət zamanı aktivləşir. Öyrənən baş verən vəziyyəti təhlil edir, məqsəd, vəzifə və problem aydınlaşır. Müşahidələr onu göstərir ki, öyrənənlər problemli vəziyyət şəraitində materialı daha keyfiyyətli mənimsəyirlər, dərsin keyfiyyəti ənənəvi dərsə nisbətən daha yüksək olur. Problemli vəziyyət iki halda aparılır: Öyrənənlər məsələnin – problemin həlli yollarını axtarır, fərziyyələr irəli sürür, onun doğruluğunun yoxlanılması yollarını müəyyən edir, müşahidə və eksperiment aparır, alınmış nəticələri təhlil edir, fikirlərini sübut etməyə çalışırlar. Bu variantda müəllim passivdir, işə müdaxilə etmir. İkinci variantda müəllim fəal olur, öyrənmələrin səmərəsiz axtarışlarını gördükdə onlara istiqamət verir. Belə problemli vəziyyət problemli-evristik və ya tədqiqat metodlu dərslər adlanır.

• ***Proqramlaşdırılmış təlim*** özünün bir sıra xüsusiyyətlərinə görə seçilir:

– *tədris materialı konkret hissələrə bölünür.*

– *təlim prosesi ardıcıl olaraq addımlara bölünür və öyrənən həmin addımlar üzrə fəaliyyət priyomlarından istifadə edir.*

– *hər bir öyrənən müstəqil şəkildə işləyir.*

– *müəllim təlimin təşkilatçısı və məsləhətçisi kimi çıxış edir, çətin məqamlarda öyrənənə köməklik göstərir və hər birinə fərdi yanaşır.*

Proqramlaşdırılmış təlim texnologiyası müəyyən üstünlüklərə malik olsa da (müstəqil iş, fərdi temp, əks-əlaqə, səhvlərlə iş və s.), onun nöqsanları da vardır. Bu zaman öyrənənin zehni fəaliyyətinin gedişi müəllimə aydın olmur, mənimsəmə prosesi lazımınca idarə olunmamış qalır. Ona görə də proqramlaşdırılmış material üzərində öyrənənin müstəqil işini müəllimin işi ilə (izah, nəzarət, ümumiləşdirmə, istiqamətləndirmə və s.), habelə başqa texnologiyalarla əlaqələndirmək lazımdır.

• ***Alqoritmləşdirilmiş*** təlim yeni bir məsələ olmasa da, aktuallığı ilə seçilən təlimdir. Hazırda onun aktuallaşdırılması həyatımızın hər sahəsinə daxil olan elektron-hesablayıcı maşınların, yeni texnologiyaların tətbiqi ilə əlaqədar təlimin bu növünü məktəblərdə tənzimləmək, vacib olduğu yerdə ondan istifadə etməyi qaydaya salmaq məqsədini güdür. “Alqoritm” termini özbək riyaziyyatçısı Əl-Xarəzmin (IX əsr) adı ilə bağlı olub, bu böyük alimin onluq say sisteminin latınlaşdırılması adını bildirir. Bu gün “alqoritm”in ifadə etdiyi məzmun çox genişlənmişdir. Alqoritm dedikdə, idraki vəzifələrin yerinə yetirilməsinə dair göstərişlər başa düşülür. Alqoritm sadə əməliyyatların ardıcıllığına dair ən dürüst

göstəriş verir, eyni zamanda, öyrənənlərə düşünməyi öyrədir, onların təfəkkürünü inkişaf etdirir, öyrənənlərin tədris fəaliyyətində ardıcıllığı yerinə yetirmələrinə kömək edir. Alqoritm proqramlaşdırılmış və onu əvəz edən kompüter təliminin əsasını təşkil edir.

• ***Kompüter təlimi*** hazırda qeyri-standart təlim növü kimi aktualdır. Bu təlim təhsil və tərbiyə prosesinin yenidən qurulmasında böyük rola malikdir. Kompüterlər xüsusi öyrədici proqramlarla təchiz olunmuşdur. Ona görə də onları böyük didaktik vəzifələrin həllinə yönəltmək olar. Kompüterlərdən ayrı-ayrı fənlər üzrə mənimsəmənin səviyyəsinin yüksəldilməsində, öyrənənlərin müstəqil düşünmək və kommunikativ vərdişlərə (informasiya toplamaq, saxlamaq, başqasına ötürmək, təhlil etmək) yiyələnmələrində və s. istifadə edilir.

Təlim prosesində kompüterin oxumaq və yazmaq, tapşırıq və məsələ həlli, təlimalma prosesi kimi funksiyalarından testləşdirmə, qiymətləndirmə və idarəetmədə istifadə olunur. Bu, müəllimə vaxta qənaət etmək, təlimin səmərəliliyini yüksəltmək imkanı verir. Kompüterin əhatə dairəsi çox genişdir. Belə ki, kompüter öz elektron vasitələri ilə ənənəvi təhsili dəyişdirib inkişaf etdirən bir vasitədir ki, təlim alanlar onun köməyi ilə dərsin məzmununu daha yaxşı öyrənə bilirlər. Bu gün kompüter dəyişikliklərə aparan bir meyilə, istəyə çevrilmişdir ki, o təlim-tərbiyənin məqsədlərini dəyişdirmiş və onları yeni bir formaya salmışdır.

• ***Diferensial (fərdiləşdirilmə) təlim*** prosesində hər bir öyrənən fərdi, başqalarından təcrid olunmuş şəkildə deyil, birgə dərs alır. Təlimin fərdiləşdirilməsi hər bir öyrənənin fərdi-psixoloji xüsusiyyətlərinə uyğun qurulmasıdır. Ənənəvi təlim prosesində müəllim sinifdə olan təhsilalanların hər birinin fərdi idrak imkanlarını nəzərə ala bilmir. Təlim orta səviyyəli öyrənənlər üçün qurulur. Belə təlim zamanı qüvvətli imkanlara malik olan təhsilalan tədricən passivləşir, zəiflər isə çətin materialı qavraya bilmədikləri üçün daha da passivləşir, formal fəaliyyət göstərməyə imkan tapırlar. Bütün işi orta səviyyəli təhsilalanlarla qurmaq heç də yaxşı nəticə vermir. Buradan da "diferensial təlim" və ya "təlimi fərdiləşdirmək" ideyası meydana çıxır.

Diferensial təlim tələbələrin biliyini dərinləşdirib genişləndirir, onların fərdi yaradıcılıq qabiliyyətlərini, fərdi öyrənmə üslublarını formalaşdırır, müxtəlif tələbatların ödənilməsinə şərait yaradır.

Öyrənənlər öz fərdi xüsusiyyətlərinə və xarakterlərinə görə müxtəlif olurlar. Təlim prosesində bəziləri əyani-obrazlı, digərləri mücərrəd hadisələri yaxşı mənimsəyir, bəziləri sürətli, digərləri ləng, başqaları möhkəm yaddaş qabiliyyətinə malikdirlər. Ənənəvi təlim bu cəhətlərin hamısını nəzərə ala bilmir, fərdiləşdirilmiş təlim isə hər bir öyrənənin real imkanına əsasən qurulur. Proqramlaşdırılmış təlim də elə fərdiləşdirilmiş təlimdir. Hər hansısa sorğunu və ya tapşırığı tez həll edənlərə boş qalmasın deyə əlavə iş verilməlidir. Diferensial təlim hər bir tələbənin məcburi şəkildə ümumi proqram keçməsini nəzərdə tutur. Tələb olunur ki, öyrənənlərin heç biri dərsdə işsiz qalmasın, yaxşı oxuyan daha da inkişaf etsin, orta və zəif öyrənən yaxşı oxuyan səviyyəsinə çata bilsin.

• ***Distant təlim*** zaman və məkan anlayışından asılı olmayaraq həyata keçirilən təlim formasıdır. Təlimdə informasiya texnologiyalarının inkişafı baxımından xeyli yeni olan distant təlim bu gün təlim-tərbiyə sisteminin yeniləşdirilməsində xüsusi əhəmiyyət kəsb edir. Ona görə də təhsilin ən yeni və effektiv texnologiyalarına, o cümlədən distant təlim texnologiyalarına tələbat da xeyli artmışdır. Distant təlimin tarixi əyani şəkildə göstərir ki, bu təhsil sistemi dünyanın müxtəlif ölkələrində cəmiyyətin təhsil sahəsində yeni tələblərinə adekvat yaranmış təlim formasıdır. Distant təlim əhalinin geniş təbəqələri üçün nəzərdə tutulur.

Distant təlim prosesinin təmin edilməsi üçün ənənəvi resurslarla yanaşı, distant təhsilin bəzi növlərindən – multimedia müşahidə vasitələri ilə təchiz olunmuş ixtisaslaşdırılmış elektron dərsliklərdən, tədris vasitələrindən, kompüter treninq proqramlarının qəbul olduğu elektron-metodik komplekslər, kompüter laboratoriya praktikumlarından, nəzarət-testləndirmə dəstləri və tədris videofilmlərindən və s. istifadə etmək lazımdır.

Distant təlim texnologiyaları işlənilib hazırlanarkən bir neçə komponentlər nəzərə alınmalıdır.

*– virtual dərsliklə iş;*

*– öyrənilən materialın elmi-nəzəri icmalı, təhlili və referatlaşdırılması;*

*– ev tapşırıqlarının yerinə yetirilməsi;*

*– kompüter auditoriyalarında iş;*

*– diskussiyalar, işgüzar və rollu oyunlar formasında interaktiv seminarlar;*

*– elektron kitabxana fondları ilə iş;*

*– cari modul testləşdirmə və yazılı buraxılış*

*imtahanları.*

Distant təlim üçün nəzərdə tutulmuş tədris materialları informasiya şəffaflığı, tədris materiallarının zorla qəbul etdirilməməsi, onların qavrayış üçün sadə olması, redaktə və referatlaşdırma işlərinin asanlığı, qənaətcillik, özünənəzarətin yüksək dərəcəsi, əks-əlaqə yaratmaq üçün interaktiv imkanların mövcud olması və s. tələblərə cavab verməlidir.

Hazırda dünyanın bir sıra ölkələrinin istər ümumi təhsil, istərsə də ali məktəblərində öyrədici kompüter proqramından səmərəli istifadə edilməsi üzrə, nəzəri fənlərin öyrədilməsinin ənənəvi metodlarının dəyişdirilməsi istiqamətində iş aparılır. Hazırda bütün dünyada uzaqdan təlim ideyaları genişlənir.

**Nəticə.** Müasir dövrdə təhsil cəmiyyətin sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafında mühüm rol oynayır. Yüksək təhsil səviyyəsinə malik peşəkar kadrlar ölkənin intellektual potensialının əsasını təşkil edir. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda göstərildiyi kimi, ölkənin uğurlu və davamlı iqtisadi yüksəlişi insan kapitalının məqsədyönlü inkişafı hesabına əldə edilir. Araşdırmada əksini tapan təhsilin nəzəri-metodoloji məsələləri, pedaqoji kateqoriya kimi təhsilin mahiyyəti, xüsusiyyətləri, sosial-iqtisadi və psixoloji əsasları, müasir təhsil konsepsiyaları, təhsilin keyfiyyətinə təsir göstərən amillər, eyni zamanda qeyri-standart dərslər və bu dərslərin, öyrənənlərin azad, yaradıcı düşünmələrinə, materialı sərbəst təhlil edib müstəqil qərar vermələrində aktual və faydalı olmasının təhlili, ümid edirik  ki, təlimin keyfiyyətinin yüksəldilməsində mühüm rol oynayacaqdır.

## İstifadə edilmiş ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin Dövlət standartları. Bakı, 2000.

2. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

3. Abbasov A.N. Pedaqogika (müxtəsər konspekt və sxemlər). Bakı, “Mütərcim” nəşriyyatı, 2007.

5. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı, 2020.

6. İsmixanov M., Vəliyeva S., Mollayeva E. Təhsilin əsasları. Bakı, 2016.

7. Mehrabov A.O., Abbasov Ə., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı, 2006.

8. Məmmədov F.M., İmamverdiyeva N.B. Pedaqogika. II c, Bakı, 2015.

9. Титов В.А. Общая педагогика (конспект лекций), Москва, 2005.

10. Харламов И.Ф. Педагогика. Минск, 2001.

11. Базалюк О. Философия образования. К, 2010.

**V.Chiragova**

## Ways of using modern technologies to improve the quality of training

**Abstract**

The article discusses the ways of using modern technologies to improve the quality of education and training, as well as the main characteristics of the concept of “training quality” from philosophical and social perspectives. In general, various aspects of training quality in the field of education are analyzed. A functional and activity-based approach to structuring the training quality system is of significant importance. There are general, specific, and strict conditions for improving the quality of training, which every educator should take into consideration. At the same time, the quality of education should be defined and ensured in the context of developing each learner’s abilities, operational competencies, mechanisms of perception and comprehension, behavioral patterns, as well as the manifestation of their moral and ethical values.

**В.Чырагова**

## Пути использования современных технологий для повышения качества обучения

**Аннотация**

В статье рассматриваются пути использования современных технологий для повышения качества образования и обучения, а также основные характеристики понятия «качество обучения» с философской и социальной точек зрения. В целом анализируются различные аспекты качества обучения в сфере образования. Функциональный и деятельностный подход к структурированию системы качества обучения имеет важное значение. Для повышения качества обучения существуют общие, конкретные и строгие условия, которые должен учитывать каждый педагог. Наряду с этим качество образования должно определяться и обеспечиваться в контексте формирования способностей каждого обучающегося, его практических компетенций, механизмов восприятия и понимания, моделей поведения, а также проявления его нравственных и моральных ценностей.